DOI: https://doi.org/10.36719/2663-4619/114/234-238

**Mehriban Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı
https://orcid.org/0000-0001-7477-9430
mehriban.aliyeva.2011@mail.ru

# Autizim sindiromlu uşaqlarının davranış analizi, aparılan araşdırmalar

## Xülasə

Autizm Spektrum Pozuntusu (ASP), beynin inkişafında yaranan anomaliyalar nəticəsində sosial qarşılıqlı əlaqə, ünsiyyət və davranış sahələrində çətinliklərə səbəb olan bir nevroloji pozuntudur. ASP olan uşaqların davranış pozuntuları aqressiv davranışlar, özünə zərər vermə, stereotipik hərəkətlər və sosial qarşılıqlı əlaqədə çətinliklər kimi təzahür edir. Bu davranışların səbəbləri arasında sensor həssaslıq, ünsiyyət çətinlikləri və ətraf mühitə adaptasiya problemləri yer alır. Lorna Uing, Uta Frith, Simon Baron-Cohen, Ole Ivar Lovas, Catherine Lord və Fred Volkmar kimi tədqiqatçılar ASP-nin müxtəlif aspektlərini araşdırmış və müalicə yollarını təklif etmişdir. ABA terapiyası, ASP olan uşaqlarda davranış pozuntularını azaltmaqda yüksək effektivdir. Dərman müalicəsi, bəzi hallarda aqressiv davranışları və özünə zərər vermə hallarını azalda bilər. İnklüziv təhsil mühiti, autizmli uşaqların sosial bacarıqlarını və özünəinamını artırmağa kömək edir. Ailə üzvləri uşaqlarının təhsil prosesinə aktiv şəkildə qatılaraq, evdə və təhsil mühitində dəstəkləyici bir mühit yaratmalıdırlar. Erkən müdaxilə və davamlı dəstək, ASP olan uşaqların həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Müalicə və təhsil proqramlarının şəxsə uyğunlaşdırılması daha yaxşı nəticələr verir.

***Açar sözlər:*** *autizm, təhsil, uşaq, oyun, erkən təhsil, davranış, araşdırma*

**Mehriban Mammadova**
Guba Branch of Azerbaijan State Pedagogical University
https://orcid.org/0000-0001-7477-9430
mehriban.aliyeva.2011@mail.ru

# Investigations of Behavioral Analysis of Children With Autism Syndrom

## Abstract

Autism Spectrum Disorder (ASD) is a neurological disorder caused by anomalies in brain development, leading to difficulties in social interaction, communication, and behavior. Children with ASD exhibit behavioral disturbances such as aggressive behavior, self-harm, stereotypic movements, and difficulties in social interaction. The causes of these behaviors include sensory sensitivity, communication difficulties, and environmental adaptation problems. Researchers such as Lorna Wing, Uta Frith, Simon Baron-Cohen, Ole Ivar Lovaas, Catherine Lord, and Fred Volkmar have studied various aspects of ASD and proposed treatment methods. Applied Behavior Analysis (ABA) therapy is highly effective in reducing behavioral disturbances in children with ASD. Medication can, in some cases, reduce aggressive behavior and self-harm. An inclusive educational environment helps enhance the social skills and self-confidence of children with autism. Family members should actively participate in their child's educational process, creating a supportive environment at home and in educational settings. Early intervention and continuous support significantly improve the quality of life for children with ASD. Personalized treatment and educational programs yield better results.

***Keywords:*** *autism, education, child, play, early education, behavior, research*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Autizm Spektrum Pozuntusu (ASP), beynin inkişafında yaranan anomaliyalar nəticəsində sosial qarşılıqlı əlaqə, ünsiyyət və davranış sahələrində çətinliklərə səbəb olan bir nevroloji pozuntudur. ASP olan uşaqların davranışlarında xüsusi pozuntular müşahidə olunur ki, bu da onların gündəlik həyatını və sosial adaptasiyasını çətinləşdirir. ASP-nin səbəbləri tam olaraq bilinməsə də, genetik və ətraf mühit faktorlarının bu pozuntuya səbəb olduğu düşünülür. Bu məqalənin məqsədi, elmi araşdırmalara əsaslanaraq ASP olan uşaqlarda rast gəlinən davranış pozuntularını və bu pozuntuların müalicə və idarə olunması yollarını araşdırmaq, araşdıran alimlərin gəldiyi nəticələri öyrənməkdir.

**Tədqiqat**

ASP-nin müxtəlif səviyyələrində fərqli davranış pozuntuları müşahidə edilə bilər. Bu pozuntuların təsnifatı, onların meydana gəlmə tezliyi və şiddətinə görə aparılır. Əsas davranış pozuntuları aqressiv davranışlar, özünə zərər vermə, stereotipik hərəkətlər və sosial qarşılıqlı əlaqədə çətinliklərdir. Bu davranışların səbəbləri arasında sensor həssaslıq, ünsiyyət çətinlikləri və ətraf mühitə adaptasiya problemləri yer alır (Abidoğlu, Gümüşçü, 2000). Hal-hazırda autizm sindromu səhiyyənin uşaq psixologiyası bölümündə ən aktual problemlərdən biridir. Bunun 3 səbəbi var:

I. patologiya uşaqlar arasında kifayət qədər yüksək sürətlə artır.
II. II. bu xəstəliyin polietioloji səbəblərdən olması qeyd edilir.
III. III. bugünə qədər ASP uşaqların tam müalicəsi mümkün olmayıb.

Autizm sindromlu uşaqların təhsilə cəlb edilməsi, onların unikal ehtiyaclarını və potensiallarını diqqətə alaraq, uyğun təhsil planları və proqramları təşkil etməyi tələb edir. Bu, onların təhsil prosesində mərhələli və səmərəli inkişafını təmin etməyə kömək edir. Hər bir autizm spektrində olan uşağın ehtiyacları fərqlidir (Korkmaz, 2003). Erkən uşaqlıq autizminin əlamətləri və simptomları yaşdan asılıdır. Buna görə əlamət və simptomların dörd əsas qrupu qeyd olunur:

- Erkən uşaq autizmi (2 yaşına çatmamış uşaqlar)
- Uşaq autizmi (2-11 yaş qrupundan olan uşaqlar)
- Yeniyetmə autizmi (11-18 yaş qrupundan olan yeniyetmələr)
- Böyüklərdə autizm

Bu səbəbdən, fərdi təhsil planları hazırlamaq və təhsil proqramlarını tənzimləmək mühüm bir rol oynayır. Bu cür uşaqlarda təhsil alma şəkli müəyyən qruplara bölünür (EUDI). Fərdi təhsil uşağın güclərinə, ehtiyaclarına uyğun olaraq tənzimlənir. Fərdi təhsil sürəti, disiplini və dinamikliyi ilə fərqlənir, hər uşaq spesifik olduğundan fərdi yanaşmada ona uyğun hazırlanır. İlk olaraq autizm spektrində olan uşaqların təhsili üçün müvafiq məsləhətləşmə və dəstək xidmətləri təmin edilməlidir. Bu məsləhətləşmələr psixoloqlar, tərbiyəçilər və müəyyən hallarda xüsusi təlimçilər tərəfindən aparılmalıdır (Lovas, 1981). ASP son 50 ildə uşaq psixologiyasında ən ciddi problemdir (Baron-Cohen, 1989, s. 11). Özünə zərər vermə davranışları, ASP olan uşaqlarda rast gəlinən başqa bir ciddi davranış pozuntusudur. Bu davranışlar, uşaqların bədənlərinə zərər verən hərəkətləri, məsələn, başını divara vurmaq və ya dərisini cırmaq kimi davranışları əhatə edir. Özünə zərər vermə davranışlarının səbəbləri arasında sensor həssaslıq, ünsiyyət çətinlikləri və emosional narahatlıqlar yer alır. Aqressiv davranışlar ASP olan uşaqlarda tez-tez rast gəlinən bir pozuntudur. Bu davranışlar, digər insanlara və ya əşyalara qarşı göstərilən aqressiya, tez-tez hirs partlayışları ilə müşayiət olunur. Səs-küy və işıq, cizgi filmlər uşağında neqativ, hətta ağrılı emosiyalar yarada bilər, bu emosiyalar isə sonradan qəzəb kimi qəddar və aqressiv davranış tərzinə çevrilə bilir (Baron-Cohen, 1989, s. 292). Stereotipik hərəkətlər, 2-3 yaşlı uşaqlarda tez-tez təkrarlanan, məqsədsiz hərəkətlərdir. Bu hərəkətlərə əl çırpma, bədən sallama və ya müəyyən obyektlərə bağlı davranışlar daxildir. Stereotipik hərəkətlərin səbəbləri tam olaraq bilinməsə də, adətən emosional hallarda daha çox özünü göstərir (Uing, 1996). Son illərdə aparılan bir çox elmi araşdırmalar ASP olan uşaqlarda davranış pozuntularının səbəbləri və bu pozuntuların idarə olunması yollarını öyrənməyə çalışılmışdır. Bu araşdırmaların nəticələri göstərir ki, erkən diaqnoz və müdaxilə, bu uşaqların həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər (Qibləliyeva, 2018). Uşaqların

həyat ilə davranışlarının oyun içərisində öyrəndiyini və oyunların uşaq inkişafında əsas faktor olduğunu söyləyən türkiyəli alim B. Sucu oğlu Əngəli uşaq və oyun kitabında qeyd edir ki, uşaq oyunlarının dörd əsas funksiyası vardır. 1) gərginliyi azaldır və emosional ifadəni təmin edir, 2) uşaqların sosiallaşmasında mühüm rol oynayır, 3) təlim prosesinin mühüm hissəsidir, 4) oyun insanların başqa cür məyusedici vəziyyətlərdən müvəffəqiyyətlə və özünü reallaşdırmağa imkan verəcək şəkildə çıxmasına səbəb olur (Frith, 1989, s. 177). Həqiqətəndə 0-3 yaş qrupundakı uşaqların dünyanı dərk etmə və inkişaf prosesinə təsir edə biləcək əsas fəaliyyətlərdən biri oyundur. Psixologiya və Pedaqogika elmlərinin baniləri sayılan L.S. Vıqotski, D.B. Elkonin, A.V. Zaporojets, M.İ. Lisina kimi alimlərin hamısı uşağın psixi inkişafının xüsusiyyətlərini və qanunauyğunluğunu tədqiq edərkən oyunlara böyük önəm vermişlər (Azərbaycan Respublikası "Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi" İctimai Birliyi, s. 199). Hans Asperger 1944-cü ildə "Asperger sindromu" termininin tibb elminə daxil edilməsində mühüm rol oynamışdır. Bu, XBT-10 və DSM-5-də Asperger sindromu adlanır. Bu autistik spektrli pozuntular qrupuna aid olan uşaqlar digərlərinə görə daha çox irsi xüsusiyyət daşıyır (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, s. 181). Lorna Uing "Autistic Spectrum Disorders" (1996): Bu kitabda təxəyyüldən bəhs edərkən qeyd edir ki, Autizm pozğunluqları olan uşaqlarda yalançı oyun və təxəyyül fəaliyyətləri başqa uşaqlarda olduğu kimi inkişaf etmir. Bir çoxları heç zaman yalançı oyunlar oynamırlar. Onlar oyuncaqlardan və digər əşyalardan yalnız fiziki hissiyyatlar üçün istifadə edirlər. Bəziləri miniatür oyuncaqlar da daxil olmaqla əşyalardan istifadə etmək mərhələsinə özlərinin aydın məqsədləri, məsələn, oyuncaq süpürgə ilə süpürmək və ya relslər üzərində qatar sürmək üçün çatırlar. Bir çoxları bu növdən olan çox mürəkkəb oyun silsilələrini icra edə bilərlər, lakin təxəyyülün məhsulu olan ssenarilər ifa etmirlər (Schramm, 2007, p. 34).

Uta Frith, Autizm və disleksiya üzrə apardığı tədqiqatlar, bu sahələrin elmi ədəbiyyatında əhəmiyyətli yer tutur. "Autism: Explaining the Enigma" (1989): Bu kitabda Uta Frith, autizmin neyrobioloji və psixoloji aspektlərini araşdırmışdır. Kitab, autizm spektrində olan insanların dünyanı necə qavradığını və davranışlarının niyə fərqli olduğunu izah etməyə çalışır. Frith, autizmin neyrobioloji əsaslarını araşdıraraq, beynin fərqli işləmə yollarını və bunun autizmli insanların davranışlarına necə təsir etdiyini göstərmişdir. Frith, autizmli insanların xüsusi koqnitiv qüsurlarını müəyyən etmiş və bu qüsurların onların gündəlik həyatlarına necə təsir etdiyini araşdırmışdır. Dil və qavrayış problemlərini üzə çıxarmışdır (Sucuoğlu, 2015, s.128). Simon Baron-Cohen, "Mindblindness: An Essay on Autism and Theory of Mind" (1995) kitabda qeyd edir ki, psixi vəziyyətlər və ortaya çıxan ağıl nəzəriyyəsi bir nəticəsidir. Aid olduğu xüsusi mexanizm birlikdə, lakin birinci və ikinci dərəcəli təmsilləri ayrı saxlayır. Bu mexanizm əlçatan edir hesablama funksiyaları toplusu və s. fərqlidir. Autizmli uşaqlarda zehni münasibətlər: üçün iddia etmək təxəyyül, məlumat vermək və soruşmaq xüsusi çatışmazlıqdır, inkişaf zamanı əsas simptomlara yüksəlir (Tohum Otizm Vakfı, 2012, s. 287). Ole Ivar Lovas, Norveç əsilli Amerika psixoloq, davranış terapiyası sahəsində önəmli işlər görmüşdür. Onun ABA (Applied Behavior Analysis) terapiyası, autizmli uşaqların davranış pozuntularının müalicəsində geniş şəkildə istifadə olunur. "The ME Book" (1981): Bu kitabda Ole Ivar Lovas, ABA terapiyasının əsas prinsiplərini və metodlarını təsvir etmişdir. Bu metod, autizmli uşaqların davranışlarını dəyişdirmək üçün tətbiq edilir (Qudrətov, Əliyeva, 2020). Lovas və həmkarları tərəfindən aparılan bu araşdırma, ABA terapiyasının autizmli uşaqların davranışlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırdığını göstərmişdir. Bu araşdırma, ABA terapiyasının effektivliyini elmi şəkildə sübut etmişdir (Gilbert, Peter, 2002). Lovas, Applied Behavior Analysis (ABA) terapiyasının autizmli uşaqların davranış pozuntularını əhəmiyyətli dərəcədə azalda biləcəyini göstərmişdir. Bu terapiya, müsbət davranışları gücləndirmək və mənfi davranışları azaltmaq üçün istifadə olunur. O əsərində qeyd edir ki, bu təlim ümid edilir tətbiqi öyrənmə prinsipindən daha səmərəli istifadə inkişafa kömək edəcək, lakin unutmayın bir fizikin insanı Aya daşımaq üçün cazibə qanunlarından daha çox şey bilməsi lazım olduğu kimi, bir insanı daha adekvat fəaliyyətə keçirmək üçün operant davranış qanunlarından daha çox şey bilməlisiniz (Rəhmanov, 2020, s. 23). Lovas, erkən yaşda başlanan ABA terapiyasının autizmli uşaqların inkişafında daha yüksək nəticələr verdiyini sübut etmişdir. Erkən müdaxilə, uşaqların sosial və ünsiyyət bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Lovas, davranışların

strukturlaşdırılması və məqsədli öyrənmə metodlarının autizmli uşaqların öyrənmə prosesini optimallaşdırdığını müəyyən etmişdir (Ivanov, Demyanchuk, Demyanchuk, 2004). Sözsüz ki, ABA terapiyası ən yaxşı terapiya metodudur. Bu metod özündə müxtəlif metodları cəmləşdirir: 1. Fərdi bloklarla təlim- uşaqlarda müxtəlif vərdişlərin formalaşdırılması, hər qazanılmış vərdişə görə mükafatlandırma. 2. Təsadüfi təlim- qazanılmış bacarıqların artırılması. 3. Bacarıqlara dəstək təlimi- motivasiyanı yüksəldərək onların bacarıqlarının inkişaf etdirilməsi yer alır (Rəhmanov, 2020, s. 29). Fred Volkmar, Amerika psixiatr və Yale Universitetində professor, autizm və digər inkişaf pozuntuları üzrə mütəxəssisdir. Onun işləri, autizmin diaqnozu və müalicəsi sahəsində əhəmiyyətli töhfələr vermişdir. "Autism and Pervasive Developmental Disorders" (2005): Bu kitabda Fred Volkmar, autizm və digər yayılmış inkişaf pozuntuları haqqında geniş məlumat vermişdir. Kitab, bu pozuntuların diaqnozu və müalicəsi sahəsində mühüm mənbədir. Yayılmış İnkişaf Pozuntuları: Volkmar, autizm və digər yayılmış inkişaf pozuntuları (PDD) arasında fərqləri və oxşarlıqları araşdırmışdır. Bu, autizmin diaqnozu və müalicəsində daha dəqiq yanaşmaların inkişafına kömək etmişdir. Volkmar, autizmli uşaqların davranış pozuntuları ilə emosional sağlamlıq arasında sıx əlaqələr olduğunu müəyyən etmiş, bu, davranış terapiyalarının və emosional dəstəyin vacibliyini vurğulamışdır. Volkmar, autizmli uşaqların təhsili və təlimi üçün strukturlaşdırılmış və fərdiləşdirilmiş yanaşmaların effektiv olduğunu göstərmişdir. Bu strategiyalar, uşaqların sosial və ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Davranış terapiyaları, xüsusilə Applied Behavior Analysis (ABA), ASP olan uşaqlarda davranış pozuntularını azaltmaqda yüksək effektiv olduğu göstərilmişdir. ABA, davranışları analiz edərək, mənfi davranışları azaldıb, müsbət davranışları gücləndirməyi hədəfləyir. Bu terapiya metodu, uşaqların sosial bacarıqlarını və ünsiyyət qabiliyyətlərini inkişaf etdirməyə kömək edir. Bəzi dərmanlar, məsələn, risperidon, aqressiv davranışların və özünə zərər vermə hallarının azalmasında köməkçi ola bilər. Dərman müalicəsi, davranış terapiyaları ilə birləşdirildikdə, daha effektiv nəticələr verir. Dərmanların istifadəsi, yalnız davranış terapiyaları ilə idarə edilə bilməyən hallarda təklif edilir (Remschmidt, 2003). Sensor inteqrasiya terapiyası və heyvanlarla terapiya kimi alternativ üsulların təsiri haqqında araşdırmalar hələ də davam edir. Sensor inteqrasiya terapiyası, uşaqların sensor məlumatları düzgün emal etmələrinə kömək edir. Musiqi terapiyası, uşaqların emosional və sosial bacarıqlarını inkişaf etdirir. Heyvanlarla terapiya isə uşaqların emosional və sosial bacarıqlarını inkişaf etdirir. Araşdırmalar göstərir ki, erkən yaşlarda başlanan müalicə və davamlı dəstək, ASP olan uşaqların davranış pozuntularını əhəmiyyətli dərəcədə azalda bilər. Həmçinin, fərdi yanaşma və müalicə proqramlarının şəxsə uyğunlaşdırılması daha yaxşı nəticələr verir. Müalicənin effektivliyi, uşaqların sosial bacarıqlarının və ünsiyyət qabiliyyətlərinin inkişafı ilə ölçülə bilər. ASP olan uşaqların təhsili və təlimi xüsusi diqqət və fərdiləşdirilmiş yanaşma tələb edir. Bu uşaqların sosial bacarıqlarını inkişaf etdirmək və davranış pozuntularını idarə etmək üçün müxtəlif təlim strategiyaları tətbiq edilir. Dərs planlarının və fəaliyyətlərin dəqiq bir strukturu, uşaqların daha yaxşı başa düşməsi və iştirak etməsini təmin edir. Strukturlaşdırılmış təlim, uşaqların davranışlarını istiqamətləndirmək və onların öyrənmə prosesini optimallaşdırmaq üçün istifadə edilir. Dərs planlarının və fəaliyyətlərin dəqiq bir strukturu, uşaqların daha yaxşı başa düşməsi və iştirak etməsini təmin edir. Strukturlaşdırılmış təlim, uşaqların davranışlarını istiqamətləndirmək və onların öyrənmə prosesini optimallaşdırmaq üçün istifadə edilir. ASP olan uşaqlara sosial qarşılıqlı əlaqə bacarıqlarını öyrətmək çox əhəmiyyətlidir.

## Nəticə

Autizm spektrindəki uşaqlar üçün təhsil nə qədər erkən yaşda başlansa, bir o qədər effektiv olur. Disiplinli fərdi təhsilin aralığı olmamalı və həftə üzrə 30 saatı aşmalıdır. Belə olduğu halda, erkən yaşda disiplinli təhsil autistik uşağın 12-14 yaşlarında özünü sərbəst idarə etməsinə kömək olacaqdır. Pedaqoqlar tərəfindən tövsiyə olunan fərdi təhsil sisteminin proqramına uyması əsas şərtlərdəndir. Erkən yaşlarında disiplinli şəkildə təhsil almağı öyrənən uşaq, yetkinlik yaşlarında öz yaşıdlarının inkişaf qrafikinə gəlmə ehtimalı var.

Hal-hazırda tətbiq olunan inklüziv təhsil mühiti, autizm spektrində olan uşaqların cəmiyyətə inteqrasiyası və inkişaf etmələri üçün ən yaxşı vasitələrdən biridir. Bu mühit, müxtəlif bacarıqlara və ehtiyaclara malik olan uşaqların birgə təhsil almasını təmin edərək, onların sosial bacarıqlarını və özünəinamını artırmağa kömək edir. İnklyuziv təhsil, autizmli uşaqların digər uşaqlarla qarşılıqlı əlaqəsini artırmaq, fərdi təhsil planlarını həyata keçirmək və xüsusi dəstək xidmətləri təmin etmək üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı, ailə üzvlərinin dəstəyi və iştirakı böyük əhəmiyyət kəsb edir. Ailə üzvləri, uşaqlarının təhsil prosesinə aktiv şəkildə qatılaraq, evdə və təhsil mühitində təşviq edici və dəstəkləyici bir mühit yaratmalıdırlar. Valideynlərin və baxıcıların rolu, uşaqların inkişafına və öyrənmə prosesinə əhəmiyyətli təsir göstərir. Onlar, uşaqların təhsil mühitinə adaptasiya olmalarına kömək etmək, öyrənmə məqsədlərini müəyyən etmək və tədris prosesində iştiraklarını təmin etmək üçün müxtəlif strategiyalardan istifadə etməlidirlər. Beləliklə, inklüziv təhsil mühiti və ailə dəstəyi, autizm spektrində olan uşaqların daha uğurlu və müstəqil bir həyat sürmələri üçün vacib elementlərdir.

## Ədəbiyyat

1. Abidoğlu, N., Gümüşçü, Ü. (2000). *Autizm və autizmli uşaqlar (2-ci nəşr).*
2. Azərbaycan Respublikası "Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi" İctimai Birliyi. (n.d.). http://www.autizm.az
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. (n.d.). *Psixi sağlamlıq mərkəzinin psixiatrı Aydan Cabbarova: Autizm spektr pozuntularından zərər çəkən uşaqlar xüsusi diqqətə ehtiyac duyur*. https://www.sehiyye.gov.az/media/xeberler-ve-yenilikler/s-hiyy-nazirliyi-psixi-saglamliq-m-rk-zinin-psixiatri-aydan-cabbarova-autizm-spektr-pozuntulardan-ziyy-t-c-k-n-usaqlar-xususi/
4. Baron-Cohen, S. (1989). Autism: A cognitive deficit? *Journal of Child Psychology and Psychiatry*, 30(2), 285–297.
5. EUDI. (n.d.). *Autizm haqqında məqalə*. https://www.eudi.az/meqale/etrafli/266
6. Frith, U. (1989). Autism: Explaining the enigma. *British Journal of Disorders of Communication*, 24, 123–150.
7. Gilbert, K., Peter, T. (2002). *Autizm: Meditsinskiye i pedagogicheskiye aspekty*. Moskva: Vlados.
8. Ivanov, E. S., Demyanchuk, L. N., Demyanchuk, R. V. (2004). *Detskiy autizm: diagnostika i korrektsiya*. Sankt-Peterburg.
9. Korkmaz, B. (2003). *Otizm – Farklı gelişen çocuklar (1. baskı)*. Epilson Yayıncılık.
10. Qibləliyeva, N. (2018). Asperger sindromunun pedaqoji-psixoloji xüsusiyyətləri. *Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri*, (2), 180–185.
11. Qudrətov, N., Əliyeva, F. (2020). *Mən bacaracam ana*. Bakı.
12. Lovas, O. I. (1981). *The me book*. Pro-Ed.
13. Remschmidt, H. (2003). *Autizm: Klinicheskiye proyavleniya, prichiny i lecheniye*. Moskva: Meditsina.
14. Rəhmanov, V. (2020). *Autizm. Autistik pozuntular. Kömək göstərmək üçün metodlar. Lehinə və əleyhinə*. Bakı: Qanun.
15. Schramm, R. (2007). *Detskiy autizm i ABA*. Rama Pablishing.
16. Sucuoğlu, B. (2015). *Engelli çocuklar ve oyun: Otistik çocuklar, çocuklarda hareket*. İstanbul.
17. Tohum Otizm Vakfı. (2012). *Otizmde eğitim, terapi ve tedavi yöntemleri*.
18. Uing, L. (1996). *Autizm spektri: Valideynlər və mütəxəssislər üçün bələdçi.*

Daxil oldu: 30.11.2024
Qəbul edildi: 05.03.2025